RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 194 (8217) CÜMƏ AXŞAMI, 5 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Daim xalqın arasında

“Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq, mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək”.

## Birinci vitse-prezident Mehriban Əliyeva öz fəaliyyəti ilə cənab İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasətə layiqli töhfələr verir

İki il öncə, fevral ayının 27-də Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında böyük etimad göstərərək Mehriban xanım Əliyevanı ölkənin Birinci vitse-prezidenti təyin edərkən birinci xanım əminliklə vurğuladı ki, yeni vəzifəsində ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacaq, Azərbaycana layiqincə xidmət etməyə çalışacaq.

Əlbəttə ki, dövlət başçısının bu qərarı qəbul etməsində əsas rol oynayan məsələ, ilk növbədə, Mehriban xanımın çoxşaxəli uğurlu fəaliyyəti oldu. Bu həm də ölkənin birinci xanımının ictimai fəaliyyətinin cənab İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamladığının təsdiqi idi.

Təyinatdan iki ildən artıq vaxt ötür. Hələ 2004-cü ildən Heydər Əliyev Fondunun fəaliyyətə başlaması ilə insanlara mərhəmət, şəfqət bəxş edən, Azərbaycanda böyük ənənələri və tarixi olan xeyriyyəçilik məktəbini yenidən dirçəldən Birinci vitse-prezidentin bu müddətdə dövlət başçısının böyük etimadını necə doğrultduğuna nəzər yetirək.

Birinci vitse-prezident vəzifəsinə təyin olunmağı ilə öhdəsinə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk etdiyini söyləyən Mehriban xanım cənab Prezidentin, həm də ona inanan bütün insanların etimadını doğrultmağı bacaracağını söyləmişdi. Bu qısa müddət ərzində Mehriban xanım bir daha təsdiq etdi ki, peşəkar siyasətçi, işgüzar, təcrübəli, prinsipial insan, dövlət quruculuğu sahəsində cənab Prezidentin ən yaxın silahdaşıdır. Dövlət başçısı ilə çiyin-çiyinə addımlayan Mehriban Əliyeva bu müddət ərzində bir daha göstərdi ki, əsas diqqətini sosial məsələlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirib. Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi bunu təsdiqləyən reallıqdır.

Birinci vitse-prezident kimi fəaliyyət göstərdiyi müddətdə də hər zaman əhalinin zəif müdafiə olunan təbəqələrinə etdiyi yardımlar, qaçqın və məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli istiqamətində atdığı addımlar, kimsəsizlərə, xəstələrə göstərdiyi qayğı Mehriban xanımın əvvəlki illərdə gördüyü işlərin davamıdır.

Bu günlərdə - doğum günündə Bilgəhdəki pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində sağlamlığı məhdud ahıl insanlarla görüşü, Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun “Dalğa Beach” istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında, məcburi köçkünlərin tədbirində iştirak etməsi Mehriban Əliyevanın həm qayğıkeş ana, həm də fəal dövlət xadimi olduğunu bir daha sübut edir.

*Ardı 3-cü səh.*

## Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin dekabr ayında Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, respublikanın Xalq artisti Əminə Paşa qızı Dilbazinin anadan olmasının 100 illiyi tamam olur.

Əminə Dilbazi Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirmiş, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandıraraq onları orijinal ifa tərzi ilə xeyli zənginləşdirmişdir. Rəngarəng repertuarında, eyni zamanda, dünya xalqlarının rəqslərinə geniş yer ayıran Əminə Dilbazinin mötəbər beynəlxalq müsabiqə və festivallardakı uğurlu çıxışları Azərbaycan incəsənətinin çoxsaylı nailiyyətləri sırasındadır. O, kinofilmlərdə, teatr tamaşaları və opera əsərlərində rəqslərə yüksək məharətlə quruluş vermiş, eləcə də professional rəqs qruplarının bədii rəhbəri kimi tanınmışdır. Əminə Dilbazinin, həmçinin xoreoqrafiya sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi istiqamətində fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan incəsənətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş Xalq artisti Əminə Dilbazinin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2019-cu il*

## R.R.Məmmədovun “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Raqif oğlu Məmmədov “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2019-cu il*

## R.R.Məmmədovun “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Raqif oğlu Məmmədov “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2019-cu il*



## Əhalinin məşğulluq probleminin həlli daim gündəmdədir

### Yeni iş yerlərinin sayı artmaqla yanaşı, özünüməşğulluq proqramı da geniş vüsət alır

Həyata keçirilən sosial islahatlar çoxşaxəlidir. Buraya əməkhaqları və pensiyaların, sosial müavinətlərin, həmçinin müxtəlif kateqoriyadan olan təqaüdlərin artırılması daxildir.

Bununla yanaşı, aparılan sosial siyasətin əsas məqsədi əməkqabiliyyətli əhalinin işlə təmin olunmasıdır. Çünki işləyən hər bir vətəndaş özünün sosial rifahını yaxşılaşdırmağa qadirdir.

*Ardı 4-cü səh.*

## Yalan ayaq tutar, amma yeriməz

### Antiazərbaycançı şəbəkə indi də Azərbaycan tarixini saxtalaşdırmağa çalışır

**30 ildən çoxdur ki, ölkə ictimaiyyətinə yalan sırımaqla məşğul olan, antiazərbaycançı qüvvələrin buyruq quluna çevrilən AXCP sədri Əli Kərimli düşdüyü açınacaqlı durumdan qurtulmaq üçün əl atmadığı vasitə yoxdur.**

Son zamanlar isə sosial şəbəkələrə azad çıxış imkanlarından istifadə edərək təxribatçılıqla məşğul olur, cəmiyyətdə çaşqınlıq yaratmaq məqsədi ilə ağ yalanlar danışır. Amma ona elə gəlir ki, xalqın yaddaşı zəifləyib və ya çox da uzaq olmayan tariximiz unudulub.

Belə ki, Əli Kərimlinin yaxın tariximizi təhrif edərək Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonunun işğal olunduğunu iddia etməsi yalnız gülüş doğura bilər. Bu iddialara yalnız Əli Kərimlinin ətrafına topladığı 5-10 gənc inana bilər.

Azərbaycan xalqı 1992-1993-cü illərdə cərəyan edən ağır və mürəkkəb prosesləri hələ də unutmayıb. O illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtmış və bununla da hərc-mərcliyə son qoyulmuş, Azərbaycan dinamik inkişaf yoluna çıxmışdı.

*Ardı 5-ci səh.*



## Çəltik biçini davam edir

Aqrar sahədə idxaldan azad olmaq, kənd əhalisi üçün yeni iş yerləri yaratmaq məqsədilə qarşıya qoyulan prioritet vəzifələr çəltikçiliyin də inkişafına imkanlar açdı. Məlumdur ki, Astara çəltikçilik sahəsində zəngin ənənələrə malikdir.

Elə buna görə də bu qərar astaralıların ürəyincə oldu. Üstəgəl dövlət tərəfindən göstərilən dəstək, yəni hər hektar üçün 90 manat subsidiyanın, habelə güzəştli qaydada mineral gübrələrin verilməsi.

Artıq bir neçə ildir ki, rayonda ekoloji cəhətdən təmiz və keyfiyyətli düyü yetişdirilir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Etibar Abbasovun dediyinə görə, cari il rayon üzrə 236,69 hektarda çəltik əkilib becərilmişdir. Hazırda sahələrdə biçin aparılır.

*Ardı 4-cü səh.*

## Ermənistan yeni etirazlarla çalxalanır

### İşğalçı ölkədə siyasi qarşıdurma güclənir

Ermənistanda Paşinyan hakimiyyəti ilə Sarkisyan-Koçaryan koalisiyası arasında yaranan qarşıdurma ölkədə siyasi sahə ilə yanaşı, sosial-iqtisadi sferada da ciddi problemlər yaradır. Əsas səbəb isə odur ki, ölkənin maliyyə rıçaqları, iqtisadiyyatın bir çox mühüm sferaları hələ də keçmiş hakimiyyətin nəzarətindədir. Hakimiyyət dəyişikliyindən sonra yeni iqtidarın sələflərinə qarşı ən sərt üsullarla hücuma keçəcəyinə dair verilən proqnozlar da özünü doğrultmaqdadır. Bunun real təsdiqi Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın həbs olunmasıdır.

2008-ci il martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və Ermənistanın konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunan Robert Koçaryan ötən ilin iyununda saxlanılsa da, apelyasiya şikayətindən sonra azad edilib. 15 noyabrda isə Ermənistanın Kassasiya Məhkəməsi onun işi üzrə apelyasiya qərarının ləğvi və sabiq prezidentin təkrar həbsi ilə bağlı prokurorluğun şikayətini qismən təmin edərək işi yenidən apelyasiya məhkəməsinə göndərib. 27 noyabrdan etibarən baş prokuror Artur Davtyan da daxil olmaqla, 6 prokurorun iştirakı ilə işə baxılıb. Davtyan bildirib ki, Koçaryan 2008-ci ildə Yerevanda baş verən dövlət terrorunun ideya müəllifidir və dərhal azadlıqdan məhrum olunmalıdır. Nəhayət, apelyasiya məhkəməsi ötən ilin 7 dekabrında çıxardığı son qərarla prokurorluğun şikayətini təmin edib və o, yenidən həbs olunub.

Ermənistanın hazırda həbsdə olan sabiq prezidenti Robert Koçaryanın tərəfdarları isə buna etiraz əlaməti olaraq aksiya keçirməkdə davam edirlər. Sabiq dövlət başçısının cinayət işi ilə bağlı məsələyə avqustun 29-da Ermənistanın Konstitusiya Məhkəməsində baxılmalı idi.

*Ardı 5-ci səh.*

# Rusiyanın Təhlükəsizlik Şurasının katibi Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 4-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Türk Şurasının Bakı Zirvə görüşünə hazırlıq məsələləri müzakirə olunub

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 4-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycanın Türk Şurasının banilərindən biri olduğunu vurğulayaraq hazırda da bu qurumun digər beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsi üçün əməli dəstəyin davam etdirildiyini bildirib. Nazir ölkəmizin Türk Şurasının fəaliyyətinə önəmli töhfə verdiyini qeyd edib, cari ilin oktyabr ayında Bakıda baş tutacaq Türk Şurası Zirvə toplantısının keçirilməsi ilə əlaqədar müvafiq hazırlıq tədbirlərinin görüldüyünü diqqətə çatdırıb.

Bağdad Amreyev, öz növbəsində, Azərbaycanın Türk Şurasının daha da inkişaf etdirilməsi istiqamətində səylərini yüksək dəyərləndirdiyini vurğulayıb.

Görüşdə tərəflər Türk Şurasının qarşıdan gələn Bakı Zirvə görüşünə hazırlıq məsələləri ilə bağlı ətraflı müzakirələr aparıblar.

Sonda Xarici İşlər naziri Elmar Məmmədyarov Türk Şurasının Baş katibi Bağdad Amreyevə, habelə onun müavinləri Qismət Gözəlova və Ömer Kocamana "Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi" ilə əlaqədar yubiley medallarını təqdim edib.

# Fransanın Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatır

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Fransa Respublikasının ölkəmizdəki səfiri xanım Aurelia Buşez ilə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfir Aurelia Buşez diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib, bölgənin aparıcı iqtisadi qüvvəsi olan Azərbaycanın Fransanın regiondakı əsas iqtisadi tərəfdaşı olduğunu vurğulayıb. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və digər layihələrin əhəmiyyətini qeyd edib. Səfir Aurelia Buşez Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın ənənəvi neft sənayesi ölkəsindən artıq qeyri-neft sektorunun inkişaf etdiyi ölkəyə çevrildiyini bildirib.

Nazir Elmar Məmmədyarov ikitərəfli əlaqələrin inkişafının uğurla davam etdiyini deyib və son zamanlar baş tutan qarşılıqlı səfərlər mübadiləsinin münasibətlərin daha da dərinləşməsinə təkan verdiyini diqqətə çatdırıb. Nazir, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı son vəziyyətə toxunaraq Ermənistanın siyasi rəhbərliyinin səsləndirdiyi tamamilə əsassız bəyanatların bölgədə gərginliyin artmasına xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəflər Azərbaycan ilə Fransa arasında siyasət, iqtisadiyyat, mədəniyyət, elm-təhsil, enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə ediblər.

Nazir Elmar Məmmədyarov səfir xanım Aurelia Buşezə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin ticarət dövriyyəsi 32 faiz artıb



Azərbaycan ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin ticarət dövriyyəsi yeddi ayda 32 faiz artıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İqtisadiyyat naziri Şahin Mustafayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Bağdad Amreyevlə görüşüb.

Nazir Azərbaycanın TDƏŞ üzvü olan ölkələrlə əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyini qeyd edib. Ölkəmizin TDƏŞ-ə üzv ölkələrlə ticarət əlaqələrinin genişləndiyini diqqətə çatdıran İqtisadiyyat naziri 2018-ci ildə ticarət dövriyyəsinin 29 faiz, bu ilin yanvar-iyul ayı ərzində isə 32 faiz artdığını bildirib. Qeyd olunub ki, Azərbaycan türkdilli dövlətlərin tədbirlərində fəal iştirak edir, üzv ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir.

İqtisadiyyat naziri Azərbaycanın ixracın təşviqi sahəsində tətbiq etdiyi mexanizmlər, ölkəmizin bir sıra xarici ölkələrdə uğurla fəaliyyət göstərən ticarət evləri barədə məlumat verərək Qazaxıstanın Nur-Sultan şəhərində də Azərbaycan Ticarət Evinin açılacağını diqqətə çatdırıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev TDƏŞ-in üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi baxımından önəmli platforma olduğunu qeyd edib, Azərbaycanın bu təşkilatda fəal iştirakını vurğulayıb.

Görüşdə TDƏŞ çərçivəsində iqtisadi əməkdaşlığın hazırkı vəziyyəti və genişləndirilməsi imkanları, Sənaye-Ticarət Palatasının, Birgə İnvestisiya Fondunun yaradılması, TDƏŞ-in 2019-cu ilin oktyabr ayında Azərbaycanda keçiriləcək VII Zirvə Toplantısı və bu tədbir çərçivəsində biznes-forumun təşkili barədə müzakirələr aparılıb. Qeyd olunub ki, TDƏŞ VII Zirvə Toplantısı üzv ölkələrin iqtisadi əlaqələrinin şaxələndirilməsi, kiçik və orta sahibkarlıq subyektləri arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açacaq.

**Yeni dərs ili qarşısında**

# Aztəminatlı ailələrin birinci sinif şagirdləri Heydər Əliyev Fondu tərəfindən məktəb ləvazimatları ilə təmin olunacaq

Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2019-2020-ci tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr veriləcək.

AZƏRTAC xəbər verir ki, hədiyyələr ünvanlı sosial yardım alan ailələrin birinci sinif şagirdləri üçün nəzərdə tutulub.



Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir və onlar sentyabrın 15-dək qeyd olunan birinci sinif şagirdlərinə çatdırılacaq.

Qeyd edək ki, fond "Təhsilə dəstək" layihəsi çərçivəsində hər il aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edir.

# Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib





Sentyabrın 4-də Azərbaycan-Fransız Universitetinin (UFAZ) akt zalında Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Təhsil nazirinin müavini, Seçki Komissiyasının sədri Firudin Qurbanov nazirlik yanında İctimai Şuranın yaradılmasının əhəmiyyətini vurğulayıb. Nazir müavini İctimai Şuranın təhsil sahəsində müxtəlif məsələlərin müzakirəsi üçün məsləhətləşmələr təşkil edən, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı nazirliyə təkliflər verən və qanunvericiliklə müəyyən edilmiş digər hüquqlara malik olan məşvərətçi qurum olacağını deyib.

Firudin Qurbanov qurumun təhsilin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirib və hər bir namizədə uğurlar arzulayıb.

Təhsil nazirinin müşaviri, Seçki Komissiyasının üzvü Elnur Məmmədov İctimai Şuranın yaradılması istiqamətində nazirlik tərəfindən görülən işlərdən, İctimai Şuranın fəaliyyət növlərindən danışıb. Nazir müşaviri İctimai Şuranın Təhsil Nazirliyinin fəaliyyətinin daha səmərəli şəkildə həyata keçirilməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Sonra səsvermə keçirilib. Səsvermənin nəticəsinə əsasən, İlqar Orucov, Şahlar Əsgərov, Etibar Əliyev, Nadir İsrafilov, Ülviyyə Mikayılova, Elmina Kazımzadə, Anar Vəliyev, Anar Cəfərzadə, Asif Cahangirov, Mais Əliyev və Hikmət Əlizadə İctimai Şuraya üzv seçiliblər.

Qeyd edək ki, Təhsil Nazirliyi yanında İctimai Şura Təhsil naziri Ceyhun Bayramovun 2019-cu il 11 iyul tarixli əmrinə əsasən yaradılır. Şuranın yaradılmasında əsas məqsəd nazirliyin fəaliyyətində şəffaflığı artırmaq, eyni zamanda, təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyəti gücləndirməkdir.

İctimai Şuraya namizədliyə və seçici qismində iştirakla bağlı Təhsil Nazirliyinə (elektron qaydada və ya Vətəndaşların Qəbulu Mərkəzinə) 125-dən çox müraciət daxil olub. Sənədləri qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun olan 44 seçici və 34 namizəd rəsmi qeydiyyata alınıb. Həmin müraciətlər Təhsil Nazirliyinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən təşkil olunmuş Seçki Komissiyası tərəfindən yoxlanılıb. Komissiyaya Təhsil Nazirliyinin 4 və vətəndaş cəmiyyəti institutlarının 5 nümayəndəsi daxildir.

# "Xaricdə magistr təhsilinin maliyyələşdirilməsi" müsabiqəsinin qalibləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olublar

Sentyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan Respublikasının Gənclər Fondunun elan etdiyi "Xaricdə magistr təhsilinin maliyyələşdirilməsi" müsabiqəsinin qalibləri ilə görüşüb.



Dövlət komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sədr Mübariz Qurbanlı çıxışında Azərbaycanın, eyni zamanda, müxtəlif ölkələrin dövlət-din modelləri, tolerant və multikultural dəyərlərimizin beynəlxalq aləmdə təbliği, komitənin dini maarifləndirmə istiqamətində gördüyü işlər haqqında tələbələrə məlumat verib. Komitə sədri qeyd edib ki, Azərbaycan unitar, hüquqi, demokratik və dünyəvi dövlətdir. Dünyəvilik Konstitusiyada öz əksini tapıb və ölkədə dövlət-din münasibətləri yüksək səviyyədə təşkil olunub.

Sonda müzakirələr aparılıb və gənclərin sualları cavablandırılıb, o cümlədən müsabiqə qaliblərinə DQİDK-nın ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri haqqında ingilis dilində nəşr etdirdiyi kitab təqdim edilib.

# Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbul olunan hərbi tibb fakültəsinin məzunları ilə görüş





Azərbaycan Prezidenti İlham Əliyevin ədliyyə orqanlarının inkişafı, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin sağlamlığının mühafizəsi, onlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi üzrə məqsədyönlü tədbirlər davam etdirilir.

Bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqda müsbət nəticələrə nail olunub və artıq bir çox dövlətlər Azərbaycan təcrübəsindən faydalanırlar.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, penitensiar sahədə fəaliyyətin müasirləşdirilməsi, həmçinin ədliyyə işçilərinin tibbi təminatının gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyində yüksəkixtisaslı həkimlərə ehtiyac nəzərə alınaraq Nazirlər Kabinetinin sərəncamına əsasən Azərbaycan Tibb Universitetinin (ATU) hərbi tibb fakültəsinə 2009-cu ildən etibarən nazirlik üçün tələbə qəbulu həyata keçirilir. Nazirlik tərəfindən həmin tələbələrlə təhsil müddətində mütəmadi əlaqə saxlanılıb, onlara penitensiar və tibb xidmətlərində qulluq keçmənin xüsusiyyətləri aşılanıb, bu sahədə təcrübə keçməklə peşə vərdişlərinə yiyələnmələrinə hər cür şərait yaradılıb.

Ədliyyə Nazirliyi üçün hazırlanan ATU-nun hərbi tibb fakültəsinin xüsusi təhsil almış builki 15 məzunu nazirliyin sərəncamına göndərilib.

Ədliyyə naziri Fikrət Məmmədov ədliyyə orqanlarına qulluğa qəbul edilən gənc həkimləri qəbul edib.

Tədbirdən öncə Fəxri xiyabanda müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edən gənclər dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Nazirlikdə keçirilmiş tədbirdə çıxış edən nazir F.Məmmədov Ulu Öndərin siyasi kursunu layiqincə davam və inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisini, dünyada ən islahatçı dövlətlərdən olduğunu və bütün sahələrdə qazanılan yüksək nailiyyətləri vurğulayıb, Azərbaycan ədliyyəsinin inkişafı və müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat verib, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Bildirib ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunurlar. Onların işlə təminatı daim diqqətdə saxlanılaraq müasir İKT-lər tətbiq olunmaqla və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə şəffaf seçimlər əsasında qulluğa qəbul edilirlər. Hazırda ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, ölkədə geniş vüsət alan könüllülük hərəkatının ədliyyə sahəsində təşviq olunaraq hazırda 600-dən çox ədliyyə könüllüsünün fəaliyyətə cəlb edildiyi bildirilib.

Penitensiar sistemdə və tibb xidmətində aparılan islahatlardan geniş söhbət açan nazir məzunlara dövlətçiliyə sədaqətlə xidmət etmələri, insanlara qayğılı münasibət göstərmələri, xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl olunması barədə tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Çıxış edən məzunlar müstəqil Azərbaycanımızın gələcək tərəqqisi naminə əzmlə çalışacaqlarını, dövlət gənclər siyasətini uğurla davam etdirən ölkə başçısına layiqli yardımçı olacaqlarını vurğulayaraq vəzifə borclarını məsuliyyətlə yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Yeni təyinat alan həkim-zabitlər Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli qaydada and içiblər.

# Daim xalqın arasında



## Birinci vitse-prezident Mehriban Əliyeva öz fəaliyyəti ilə cənab İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasətə layiqli töhfələr verir

*Əvvəli 1-ci səh.*

Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyev kimi Mehriban xanım da daim insanlarla ünsiyyətdə olub, onları düşündürən, narahat edən məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlərin görülməsi təşəbbüsü ilə çıxış edir, xalqın sosial sifarişlərinin həyata keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görür.

Bu, bir həqiqətdir ki, Azərbaycan qadını tarixən öz mərdliyi, yüksək mənəviyyatı və bacarığı ilə fərqlənib, kişilərlə çiyin-çiyinə çalışıb, lazım gələndə onlara dayaq olub, istər əmək, diplomatiya, yaradıcılıq, istərsə də hərb meydanlarında misilsiz qəhrəmanlıqlar göstərib. Zaman keçdikcə bu ənənə yeni nəsillərə ötürülür. Əminliklə deyə bilərik ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva əsrlər öncə yaradılmış o möhtəşəm ənənənin müasir daşıyıcısıdır. Onun çoxşaxəli fəaliyyətində bu ənənə inkişaf edərək daha da zənginləşib. Düzdür, Azərbaycanın tarixində igid, cəsur, qeyrətli diplomat qadınlar çox olub. Amma indiyədək ölkəmizi beynəlxalq aləmdə Mehriban xanım Əliyeva kimi böyük miqyasda təbliğ edən, tanıtdıran ikinci qadın olmayıb.

Müasir Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsi, dünyada dinlər və millətlər arasında dözümlülüyün təbliğatçısı və təşviqatçısı, həmçinin etibarlı tərəfdaş olduğunu təsdiqləyən siyasət yürüdən Prezident İlham Əliyevin sadiq silahdaşı kimi Mehriban Əliyeva ilk növbədə şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidmət amalını özünün həyat kredosuna çevirib.

UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin səviyyəsinin yüksəldilməsi, səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının təminatı, Azərbaycan həqiqətlərinin bütün dünyada təbliğ olunması yönümündə həyata keçirdiyi qlobal layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Mehriban xanımın fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox uzaqda da geniş ictimai əks-səda doğurub. Beynəlxalq ictimaiyyət Azərbaycanın Birinci vitse-prezidentini Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirir. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar, medallar onun dünyadakı nüfuzunun göstəricisidir. Bu təltiflərin hər birinin arxasında prinsipiallıq, xeyirxahlıq, xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə sevgi dayanır. Onun ən böyük mükafatı isə Azərbaycan xalqının rəğbəti və sevgisidir.

Ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü əvəzsiz işlərlə yanaşı, gender problemlərinin, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir.

Əminliklə deyə bilərik ki, Azərbaycanın Birinci vitse-prezidenti bundan sonra da öz fəaliyyəti ilə ölkədə həyata keçirilən siyasətə layiqli töhfələr verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın və Türkiyənin Sahil mühafizələri arasında İşçi Protokolu imzalanıb

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) ilə Türkiyə Respublikasının müvafiq qurumları arasında ikitərəfli əlaqələr uğurla davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, birgə əməkdaşlıq fəaliyyətləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi general-leytenant Əfqan Nağıyevin dəvəti ilə sentyabrın 2-də Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Sahil Mühafizəsinin komandanı, kontr-admiral Ahmet Kendirin rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycana səfərə gəlib.

Sentyabrın 3-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.



Görüşdə ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, sərhəd təhlükəsizliyinin təmin edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizə üzrə sahil mühafizəsi sahəsində həyata keçirilən tədbirlər müzakirə olunub, birgə əməkdaşlıq və qarşılıqlı əlaqələndirmənin, təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyi qeyd edilib.

Səfər çərçivəsində qonaqlar DSX Sahil Mühafizəsində dəniz sərhədlərinin mühafizəsinin təşkili vəziyyəti və xüsusiyyətləri ilə tanış olub, aidiyyəti bölmələrin xidməti-döyüş fəaliyyətinin müasir tələblərə uyğun aparılması məqsədilə istifadə olunan qabaqcıl sistem və texniki vasitələri nəzərdən keçiriblər.

Azərbaycan və Türkiyə nümayəndələri müsbət təcrübə mübadiləsini aparıb, gələcək əlaqələrin perspektivlərini müzakirə edib və sahil mühafizəsi bölmələri arasında praktiki əməkdaşlıq tədbirlərinin davam etdirilməsinə dair razılıq əldə ediblər. Görüşün nəticələrinə dair nümayəndə heyətlərinin İşçi Protokolu imzalanıb.

Qonaqlar səfər çərçivəsində Şəhidlər xiyabanını və şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, həmçinin Heydər Əliyev Mərkəzi, Bakı şəhərinin mədəni-tarixi abidələri və Dövlət Sərhəd Xidmətinin Aparatında yerləşən Siyasi repressiya qurbanları muzeyi ilə tanış olublar.

***"Azərbaycan"***

# Sərhəd Xidmətinin və Gömrük Komitəsinin rəhbərləri "Qırmızı körpü" sərhəd-keçid məntəqəsindəki vəziyyətlə tanış olublar

Sentyabrın 4-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Azərbaycanın Gürcüstanla dövlət sərhədində yerləşən "Qırmızı körpü" sərhəd-keçid məntəqəsində mövcud vəziyyətlə tanış olublar.

Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində "Qırmızı körpü" sərhəd-keçid məntəqəsinin infrastrukturunun təkmilləşdirilməsi prosesində görüləcək işlər barədə müzakirələr aparılıb.

Son zamanlar sərnişin və yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması baxımından sərhəd təhlükəsizliyinin təminatı tədbirlərinin gücləndirilməsi ilə yanaşı, sərhədkeçmə məsələlərinin daha da təkmilləşdirilməsi, o cümlədən dövlət sərhədindən keçən şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində sərhəd və gömrük nəzarətinin sürətləndirilməsi və daha səmərəli təşkilinə dair konkret tapşırıqlar verilib.

Qurum rəhbərləri xidmət səviyyəsinin yüksəldilməsi, sərhəd-keçid məntəqəsində baş verən sıxlıqların gələcəkdə təkrarlanmaması üçün aparılacaq yenidənqurma işlərinin səmərəliliyinin təmin olunması, sərhədkeçmə prosesinin sürətli, şəffaf və maneəsiz həyata keçirilməsinə dair tapşırıq və tövsiyələrini veriblər.

# AZƏRTAC və İsrailin Tazpit agentliyi Əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalayıblar

AZƏRTAC və İsrailin Tazpit xəbər agentliyi informasiya mübadiləsi və media texnologiyaları sahəsində əməkdaşlığa başlayır.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal arasında Bakıda keçirilən görüşdə əlaqələrin qurulması və perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan və İsrail arasında sıx mədəni, tarixi əlaqələrin olduğunu deyən Aslan Aslanov ölkələrimizin hazırda bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini bildirib. Qeyd olunub ki, bütün bunlar informasiya sahəsində də tərəfdaşlıq üçün böyük imkanlar açır. İlkin mənbədən məlumat mübadiləsinin iki ölkə arasında bütün istiqamətlər üzrə münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.




AZƏRTAC ilə tərəfdaşlığa böyük önəm verdiklərini vurğulayan Tazpit agentliyinin icraçı direktoru Amotz Ayal bu əməkdaşlığın ölkələrimizi bir-birinə daha yaxından tanıtmaq baxımından faydalı olacağını deyib. "Tazpit İsrailin ilk xəbər agentliyi olaraq ölkə həyatının bütün sahələri üzrə informasiya yayır. Yeni yaranmış media qurumu olmasına baxmayaraq, media texnologiyalarını fəal şəkildə tətbiq edir", - deyə Amotz Ayal bildirib.

Sonra Əməkdaşlıq barədə Anlaşma Memorandumunun imzalanma mərasimi olub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal tərəfindən imzalanan sənəd xəbər, foto və video materialların mübadiləsini, kadrların hazırlığı və media texnologiyaları sahəsində əməkdaşlığı nəzərdə tutur. Razılaşmaya əsasən, agentliklər gündəlik xəbər mübadiləsi həyata keçirəcəklər.

Amotz Ayal AZƏRTAC-ın jurnalistləri ilə görüşdə bildirib ki, bu gün imzalanan sənəd Tazpit-in xarici xəbər agentliyi ilə ilk rəsmi əməkdaşlıq müqaviləsidir. O, ilk tərəfdaş kimi AZƏRTAC-ı seçmələrinin təsadüfi olmadığını deyib. Qeyd edib ki, AZƏRTAC-ın yüzdən çox agentliyi ətrafında birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrlik etməsi, nüfuzlu xəbər agentlikləri ilə tərəfdaşlıq əlaqələri qurması bu seçimi şərtləndirən amillərdir. Əsasən də buna İsrail və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsi öz təsirini göstərib.

Görüşdə, həmçinin Azərbaycanda multikultural mühitdən, Azərbaycan və yəhudi xalqlarının burada tarixən sülh şəraitində yaşamasından, müasir media və jurnalistikanın inkişafı tendensiyalarından danışılıb.

# Mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət təltifləri təqdim olunub

Sentyabrın 4-də ölkə başçısının müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup mədəniyyət və ədəbiyyat xadiminə mükafatların təqdim olunması mərasimi keçirilib.



Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Əbülfəs Qarayev mərasimdə çıxış edərək ölkəmizdə mədəniyyət və incəsənətin inkişafında xidmətləri olan şəxslərə dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilməsi ənənəsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib.

Qeyd edib ki, Ümummilli Liderin bu müdrik yanaşması Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir: "İnsanın əməyinin qiymətləndirilməsi onun fəaliyyətini stimullaşdırır, yaradıcılıq prosesinə müsbət təsir göstərir. Dövlətimiz yaradıcı insanların işini diqqət mərkəzində saxlayır, əsərlərinin təbliğinə dəstək verir. Ölkə başçısının sərəncamları ilə bu il də görkəmli ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri geniş şəkildə qeyd olunur, adları əbədiləşdirilir, əsərləri çap olunur. Bütün bunlar ölkə rəhbərliyinin mədəniyyətə böyük sevgisinin göstəricisidir".

Nazir bu gün təltif edilən mədəniyyət və ədəbiyyat xadimlərinin Azərbaycanın inkişafına mühüm töhfələr verən insanlar olduğunu qeyd edib. Bildirib ki, Xalq artisti Roza Cəlilovanın Azərbaycan peşəkar rəqs sənətinin inkişafında özünəməxsus yeri var. Roza xanım bu gün ömrünün müdrik çağında da ruhən bağlı olduğu xoreoqrafiya sənətinin gələcəyi üçün çalışır.

Nazir vurğulayıb ki, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla görkəmli ədəbiyyatşünas, dilçi alim olmaqla yanaşı, oxucuların rəğbətlə qarşıladığı yazıçı-dramaturqdur. Onun əsərləri ölkəmizin hüdudlarından kənarda da böyük maraqla oxunur. Kamal Abdulla Azərbaycanın malik olduğu multikultural dəyərlərin dünyada təbliğ olunmasında böyük xidmətlər göstərir.

Əbülfəs Qarayev yazıçı, ssenarist Natiq Rəsulzadənin 40 ildən çoxdur ədəbi yaradıcılıqla məşğul olduğunu söyləyərək qeyd edib ki, müəllifin əsərləri bir çox dillərə tərcümə olunub, müxtəlif ölkələrdə işıq üzü görüb, nüfuzlu mükafatlara layiq görülüb. Natiq Rəsulzadənin ssenariləri əsasında çəkilən filmlər tamaşaçılar tərəfindən maraqla qarşılanır.

Nazir Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə heyətinin rəhbəri, yazıçı Afaq Məsudun bədii yaradıcılığından və fəaliyyətindən söz açıb. Bildirib ki, A.Məsud ədəbiyyatımıza və ədəbiyyatşünaslığımıza dəyərli əsərlər bəxş edən görkəmli ziyalılar nəslinin davamçısıdır. Onun rəhbərlik etdiyi Dövlət Tərcümə Mərkəzi tərəfindən Azərbaycan ədəbiyyatının dəyərli nümunələrinin müxtəlif xalqların dillərinə, eləcə də bir sıra dünya müəlliflərinin əsərlərinin dilimizə tərcümə edilərək oxucularımıza çatdırılması istiqamətində təqdirəlayiq işlər görülür. Eyni zamanda, Afaq Məsud çağdaş Azərbaycan nəsrinin zənginləşməsinə sanballı töhfələr verir.

Görkəmli şair, ssenarist Ramiz Rövşənin Azərbaycan oxucusunun ən çox sevdiyi qələm sahiblərindən olduğunu deyən nazir onun C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətini yüksək qiymətləndirib. Ramiz Rövşənin ssenariləri üzrə çəkilən ekran əsərlərinin Azərbaycan kinematoqrafiyasının qiymətli nümunələri olduğu diqqətə çatdırılıb.

Sonra Əbülfəs Qarayev dövlət təltiflərini mədəniyyət xadimlərinə təqdim edib.

Təltif olunanlar Azərbaycanın mədəniyyət və ədəbiyyat xadimlərinə göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "TurAz Qartalı-2019" birgə taktiki təlimlərində döyüş uçuşları keçirilir

Ölkəmizdə keçirilən "TurAz Qartalı-2019" birgə taktiki təlimlərində Azərbaycan və Türkiyənin aviasiya vasitələrinin uçuşları keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə iştirak edən hər iki ölkənin hərbi aviasiyası müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqların yerinə yetirilməsi məqsədilə uçuşlar həyata keçirir.

Qeyd edək ki, Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndələri təlimlərdə müşahidəçi qismində iştirak edir.







# *M.ZAXAROVA:* "Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanmasında irəliləyişə nail olmağa şərait yaratmalıdır"

Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanması yolunda sürətli irəliləyişə şərait yaratmalıdır.

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə Ermənistanın baş naziri Nikol Paşinyanın son bəyanatları barədə sualın cavabında səsləndirib.

O bildirib ki, münaqişə tərəflərinin bəyanatları münaqişənin dinc yolla nizamlanmasına yönəlmiş ümumi səylərə uyğun olmalıdır. Rusiya XİN nümayəndəsi deyib: "Danışıqlar prosesində "nifaq alması"na çevrilən və əlavə suallar doğuran bəyanatlardan sonra əvvəlki mövqeyə qayıtmaq həmişə çox mürəkkəb məsələdir və bu, amanabənd danışıqlar prosesinin tarazlığını poza bilər. Təəssüf ki, biz müxtəlif səviyyələrdə müxtəlif tərəflərin bu cür bəyanatlarını çox eşitmişik və bu cür bəyanatlarla yenə üzləşirik".

M.Zaxarova deyib: "Biz daxili siyasi prosesə hörmət bəsləyirik və başa düşürük ki, siyasi quruluşun demokratik modelində insanlar istənilən mövzuda fikir söyləmək, lakin eyni zamanda müvafiq siyasi ilkin şərait formalaşdırmaq hüququna malikdirlər. Çox istərdik ki, bütün tərəflər bir başlıca şərtə əməl etsinlər - bütün resurslar münaqişənin tezliklə və dinc yolla tənzimlənməsinə yönəldilməlidir. Bu, mürəkkəb və uzun prosesdir. Düşünürəm ki, sürətlə irəliləməyin zəruri olmasını hamı başa düşür və bunun üçün bəyanatlar həmin əsas hədəfə müvafiq olmalı və ona şərait yaratmalıdır".

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Əhalinin məşğulluq probleminin həlli daim gündəmdədir

### Yeni iş yerlərinin sayı artmaqla yanaşı, özünüməşğulluq proqramı da geniş vüsət alır




*Əvvəli 1-ci səh.*

Beləliklə, vətəndaş nəinki dövlətdən müxtəlif müavinətlər alır, əksinə, dövlət büdcəsinə və sosial müdafiə fonduna ödənişlər etməklə ümumi inkişafa da töhfə verir. Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamlarına əsasən, sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, həmçinin dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib.

Beləliklə, ölkəmizdə vətəndaş rifahına yönələn və cari ildə inqilabi xarakter daşıyan sosial islahatların tərkib hissəsi kimi, minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqının artımı ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla 950 min nəfərin (o cümlədən dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin) maaşının artmasına imkan verib.

Minimum əməkhaqqının səviyyəsinin yüksək olduğuna görə Azərbaycan MDB ölkələri ilə müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə artıq ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Dövlət başçısının 18 iyun 2019-cu il tarixində imzaladığı sərəncamlarla eyni zamanda, dövlət sektorunda işləyənlərin əməkhaqlarının 20-50 faiz artırılması isə 400 min vətəndaşı əhatə edib. Beləliklə, ikinci sosial paketin tərkib hissəsi kimi, minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Prezidentin 18 iyun 2019-cu il tarixli sərəncamına əsasən, cari il sentyabrın 1-dən minimum əməkhaqqının 250 manata çatdırılması ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə müraciət edib. Onların nəzərinə çatdırılır ki, sentyabr ayının 1-nə qədər əməkhaqqı 250 manatdan aşağı məbləğdə olan işçilərin əməkhaqları qeyd edilən tarixdən 250 manata çatdırılsın. Belə ki, 1 sentyabr tarixindən iş yerlərində əməkhaqqının minimum məbləği 250 manatdan az olmamalıdır.

Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Əmək müqaviləsi bildirişi" altsistemi vasitəsilə bu sahədə vəziyyətə daimi nəzarət edilir. Bağlanmış əmək müqavilələri, eləcə də müqavilələrə dəyişiklik edilməsi və ya xitam verilməsi barədə bütün məlumatlar həmin altsistemdə əhatə olunub. Bu altsistem iş yerlərində bağlanmış əmək müqavilələri üzrə müəyyən edilmiş bütün əməkhaqları üzrə məlumatları real vaxt rejimində görməyə imkan verir.

Qeyd edilən sərəncama əsasən, minimum əməkhaqqının məbləğinin artırılması ilə əlaqədar 19 pillədən ibarət vahid tarif cədvəli üzrə əməkhaqları ödənilən işçilərin əməkhaqlarında da işəgötürənlər tərəfindən müvafiq artımlar edilməli, bununla bağlı müvafiq tədbirlər görülməlidir. Qanunun bu tələbinə əməl etməyənlər məsuliyyət daşıyır. İnzibati Xətalar Məcəlləsinin 192.3-cü maddəsində işçiyə minimum əməkhaqqından aşağı məbləğdə əməkhaqqı verilməsinə görə vəzifəli şəxslərin min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulur.

Dövlət başçısının müvafiq sərəncamının icrası olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində respublikamızın rayon və şəhərlərində işsiz və işaxtaran şəxslərin kiçik ailə təsərrüfatlarının yaradılması prosesi davam etdirilir.

Cari ilin iyul-avqust aylarında daha 420 ailəyə mal və materiallar formasında aktivlər təqdim olunub ki, onlar da verilmiş aktivlər hesabına öz təsərrüfatlarını yaradıblar. Təsərrüfatların böyük əksəriyyəti kənd təsərrüfatı sahələrini (heyvandarlıq, bağçılıq, arıçılıq, istixana və s.) əhatə edir. Bu il üzrə özünüməşğulluq proqramı çərçivəsində artıq 1500-dək kiçik ailə təsərrüfatı yaradılıb.

Ümumilikdə cari ilin ötən dövründə 4500-dək şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar əsasən əlilliyi olanlardan, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərindən ibarətdir. İl ərzində 10 minədək ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramına cəlb edilmək üçün müraciət edənlər arasında üstünlük verilən kateqoriyalardan biri də məcburi köçkünlərdir. Cari ilin ötən dövründə özünüməşğulluq proqramında iştirak etmək üçün müraciət edən məcburi köçkünlərdən artıq 750-dək şəxs özünüməşğulluq fəaliyyətinə başlamaq və kiçik biznesini qurmaq üçün potensialları olduğu nəzərə alınmaqla bu proqrama cəlb edilib.

Onlar üçün kiçik biznesin qurulması və idarəedilməsi üzrə təlim kursları təşkil olunub. Biznes-planları müsbət dəyərləndirilən şəxslərə kiçik ailə təsərrüfatlarını qurmaq üçün artıq aktivlər verilməsinə başlanıb. Hazırda işsiz və işaxtaran şəxslərin özünüməşğulluq proqramına cəlb edilməsi işləri davam edir. Bu işlər çərçivəsində ilin sonunadək proqrama cəlb olunacaq məcburi köçkünlərin sayı da artacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## KOBİA və MBNP birgə seminar keçirəcək

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) birgə təşkilatçılığı ilə sentyabrın 13-də mikro və kiçik sahibkarlıq subyektlərinin rəhbərləri üçün "Kapital bazarları vasitəsilə maliyyələşdirmə" mövzusunda növbəti seminar keçiriləcək.

KOBİA-dan bildiriblər ki, tədbirin təşkilində məqsəd KOB subyektləri arasında müasir dövrün tələblərinə uyğun innovativ sahiblik düşüncə tərzinin inkişaf etdirilməsi, alternativ maliyyə mənbələri, onların üstünlükləri, müvafiq resurslara çıxış imkanları və bu sahədə beynəlxalq təcrübə barədə sahibkarların məlumatlandırılmasıdır.

## Heyvandarlıq məhsullarının istehsalı artıb

Şamaxı heyvandarları əsas göstəricilər üzrə məhsul istehsalında cari ilin yanvar-avqust aylarını uğurlu nəticələrlə başa vurublar. Rayonda ət, süd və yumurta istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli artıb.

Rayon Statistika İdarəsinin məlumatında bildirilir ki, cari ilin 8 ayında Şamaxıda diri çəkidə 2689,9 ton ət istehsal olunub. Bu, 2018-ci ilin müvafiq dövrünə nisbətən 522,5 ton çoxdur.

Süd və yumurta istehsalında da nəticələr yaxşıdır. Belə ki, 8 ayda süd istehsalı 5699,9 ton artaraq 19 min 258,8 tona, yumurta istehsalı 2 milyon 907 min ədəd artaraq 11 milyon 720 min ədədə çatıb.

## Sahələrdə təkrar əkin aparılır

Bərdə rayonunda fermerlər və torpaq mülkiyyətçiləri kənd təsərrüfatı işlərini davam etdirirlər. Rayonda məhsul yığımı ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqi də həyata keçirilir.

Cari ildə rayon fermerləri 3015 hektar sahədə təkrar əkin aparıblar. Bunun 1407 hektarı kələm, 357 hektarı yerkökü, 206 hektarı lobya, 215 hektarı xiyar, 68 hektarı pomidor, 98 hektarı badımcan, 405 hektarı qarğıdalıdır.

Payızlıq əkinləri üçün 4475 hektar sahədə şum da qaldırılıb. Hazırda rayonda məhsul yığımı, bəzi kənd təsərrüfatı bitkilərinin becərilməsi, pambıq yığımına və növbəti təsərrüfat ilinə hazırlıq işləri davam edir.

## Çəltik biçini davam edir

*Əvvəli 1-ci səh.*

Bir müddət bundan əvvələdək məhsulu biçilmiş 95,7 hektar sahədən 386,5 ton çəltik əldə edilmişdir. Hər hektarın məhsuldarlığı 40,4 sentner olmuşdur ki, bu da keçən ildəkindən 3 sentner çoxdur.



Artupa, Səncərədi, Suparibağ, Kakalos, Ərçivan, Siyəkəran və Pensər kənd əhalisi daha yüksək və keyfiyyətli məhsul yetişdirirlər. Rayonda yetişdirilən "Haşimi", "Sədri", "Apula", "Siruzi", "Xəzər", "Okean", "Həsənli" düyü növləri alıcılar tərəfindən rəğbətlə qarşılanır. Çəltiyin döyülərək düyü halına gətirməsi üçün rayonda "Muğan Düyü" MMC fəaliyyət göstərir.

Gün ərzində 10 ton düyü emal etmək gücünə malik olan müəssisənin avadanlıqları xarici ölkələrdən alınıb gətirilmişdir.

İstehsal olunan düyünün münasib qiymətə satılması onu əkib-becərənlərin bu işə marağını daha da artırdı. Artupa kəndindən olan fermer Araz Rzayevi hamı yaxşı tanıyır. Halal zəhmət adamıdır. Cari ildə çəltik əkdiyi 4 hektardan yüksək məhsul götürmək üçün əkinlərə nümunəvi qulluq edir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## "Qərbi Abşeron" yatağında daha bir quyu qazılıb

Kompleks qazma və quyu xidmətləri göstərən SOCAR AQŞ bu günlərdə "Qərbi Abşeron" yatağı 10 saylı stasionar dəniz özülündən faktiki dərinliyi 815 metr olan 65 nömrəli quyunun tikintisi işlərini təhlükəsiz, keyfiyyətlə və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb.

Müəssisə eyni zamanda 10 saylı özüldən layihə dərinliyi 780 metr olan 18 nömrəli quyuda qazma işlərinə start verib. 18 nömrəli quyunun Qırmaki altı Lay Dəsti (QAD) horizontuna qazılması planlaşdırılır. Quyuların qazılması 10 saylı stasionar dəniz özülündə yeni nəsil qazma avadanlığı olan "Drilmec HH 300" vasitəsilə həyata keçirilir. SOCAR AQŞ həmişə olduğu kimi, bu və növbəti quyuları da Sağlamlıq, Texniki Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi (STTƏMM) tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi cəhətdən səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcək.

Sifarişçi SOCAR-ın "Azneft" İstehsalat Birliyidir.

## Köhnə binanın yerində yenisi tikilir

Ötən əsrin 50-ci illərində Astara şəhərindəki balıq zavodunda işləyən fəhlə və qulluqçular üçün tikilmiş yaşayış evləri istismar müddətini başa vurduğuna görə sökülərək onların yerində müasir, çoxmənzilli, yeni yaşayış binası tikilir.

Bu məqsədlə 2018-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Astara Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb.

48 mənzilli 4 mərtəbəli yaşayış binasının tikintisinə bu ilin fevral ayında başlanılıb. Binada mənzillərin 12-si üç, 24-ü iki və 12-si birotaqlıdır. Tikintidə əksəriyyəti yerli sakinlər olmaqla 50-dən çox işçi çalışır.

Artıq yaşayış binasında hörgü işləri başa çatıb, dam örtüyü vurulub, su, işıq, kanalizasiya və istilik xətləri çəkilib. Hazırda inşaatçılar bina daxilində suvaq işlərini aparırlar. Yeni binanın dekabr ayında istifadəyə verilməsi nəzərdə tutulub.

İş icraçısı Arif Səmədov deyir ki, bu il həmçinin yeni binanın arxa hissəsində 36 mənzilli, dördmərtəbəli yaşayış evinin tikintisinə başlanması da nəzərdə tutulub. Binaların arasında sakinlər üçün istirahət guşələri, avtonəqliyyat vasitələri üçün dayanacaq inşa ediləcək.

## "Öyrənən fermer" layihəsinin açılışı olub

Aqrar İnkişaf Könüllülərinin təşkilatçılığı və BMT İnkişaf Proqramının "Aqrobioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi" layihəsinin tərəfdaşlığı ilə "Öyrənən fermer" layihəsinə start verilib. Layihə Şəki, Göyçay, Goranboy rayonlarında keçiriləcək.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin yaydığı məlumata görə, layihənin əsas məqsədi regionlarda fermerləri meyvəçilik, torpaqların deqradasiyasının bitkilərin məhsuldarlığına təsiri, ilkin tibbi yardım kimi mövzularda təlimlərə cəlb etmək, təsərrüfat üçün faydalı internet resursları, Dövlət Aqrar İnkişaf mərkəzlərinin göstərdiyi xidmətlər, Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumları haqqında məlumat vermək, eyni zamanda fermerlərin bilik və bacarıqlarını artırmaqdır.

Layihənin açılış mərasimi Şəki Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) baş tutub. Tədbiri açan Aqrar İnkişaf Könüllüləri Təşkilatının sədri Sarvan Cəbrayılzadə bildirib ki, insanların zəruri ərzaq ehtiyaclarının ödənilməsi bəşəriyyətin inkişafının ilkin mərhələsindən bugünədək əsas çağırışlardan biri olub və bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə olaraq qalır. O, iştirakçıları Azərbaycanda aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində görülən işlər barədə məlumatlandırıb.

"Qlobal əhəmiyyətli aqrobioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi" layihəsinin rəhbəri Fərid Abbasov bildirib ki, aqrar islahatlarda strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya olunması, məhsuldarlığın artırılması hesabına istehsal xərclərinin azaldılması təşkil edir. O, layihənin icrasında Aqrar İnkişaf Könüllülərinə və fermerlərə uğurlar diləyib.

Qeyd edək ki, "Öyrənən fermer" layihəsinin ikinci mərhələsində könüllülər vasitəsilə maarifləndirici bukletlər paylanacaq, fermerlərin təlim ehtiyaclarını müəyyənləşdirmək üçün sorğular keçiriləcək.

***Xəbərlər hazırlanarkən AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir***

## «Cənub qaz dəhlizi»nin sonuncu seqmentinin çəkilişi başa çatır

### Görülən işlər TAP-ın Azərbaycan qazını Avropaya gələn il çatdıracağını vəd edir

**"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikinti meydançalarında işlər uğurla başa çatmaqdadır. Bu da kəmərin Azərbaycan qazını Avropaya nəzərdə tutulduğu vaxtda, yəni gələn il çatdıracağına zəmanət verir.**



"Cənub qaz dəhlizi"nin reallaşması istiqamətində mühüm addımlar atılıb. 2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında layihənin rəsmi açılış mərasimi keçirilib. Buna "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində qazın əldə olunması və Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsinin başa çatdırılması imkan yaradıb. Həmin ilin iyun ayında Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) istifadəyə verilib. Beləliklə, "Cənub qaz dəhlizi"nin dörd seqmentindən üçü artıq reallaşıb. İndi TAP-ın çəkilişi də yekunlaşmaqdadır.

Cari il iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu istiqamətdə görülən işlərdən də bəhs edilib. Dövlət başçısı bildirib ki, bu sahədə önəmli addımlar atılıb: "Cənub qaz dəhlizi"nin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda "Cənub qaz dəhlizi"nin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir".

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Həmin vaxtdan da tikinti işlərinə başlanıb.

TAP strateji əhəmiyyətli bir layihədir. O, Avropanın mavi yanacağa olan tələbatını ödəyəcək və enerji təhlükəsizliyinə ciddi dəstək verəcək. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil olunan qazı Türkiyəyə və oradan da Avropaya daşıyacaq 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP kəməri CQBK-nın və TANAP-ın davamıdır.

TAP Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. Bu boru xəttinin marşrutu Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlanır. Bu, uzunluğu təxminən 878 kilometr olan kəmərdir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçəcək və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxacaq. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

TAP layihəsində BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləri tərəfdaşlıq edirlər.

Layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Kəmərin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir.

TAP-ın diametri əsasən 48 düymdür, yalnız dənizin altından keçən hissəsində 37 düymlük borular düzülüb. Kəmərin yolu qısa olmadığından və ayrı-ayrı hissələri fərqli coğrafi şəraitdə yerləşdiyindən inşaat işləri də mürəkkəbdir. Üstəlik, kəmərin bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları var. Bununla belə, inşaatçılar indiyədək bütün işlərin öhdəsindən layiqincə gəliblər.

Kəmərin Apuliyada (İtaliya) yerləşən 1,5 kilometrlik mikrotunelinin inşasının uğurla yekunlaşması da layihənin müvəffəqiyyətlə sona çatacağından xəbər verir. Artıq İtaliyada 3 kilometr uzunluğunda borular torpaq altında basdırılıb. Yay ayları bitdikdən sonra işlər daha da sürətləndiriləcək.

Layihənin İtaliyada başa çatmasına baxmayaraq, təbii qazın gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Xəzərin sahilində Sumqayıt bulvarı

**Bir zamanlar Sumqayıtın adı gələndə göz önünə yalnız böyük sənaye qurğuları, şəhərin qoynuna “səpələnmiş” çoxsaylı zavodlar, istehsalat sahələri gəlirdi. Ovaxtlar bugünkü Sumqayıtı bəlkə də heç kəs təsəvvüründə canlandıra bilməzdi.**







Çünki bugünün Sumqayıtı bir çox sənaye müəssisələri ilə şöhrət tapsa da, eyni zamanda gözəlliklər şəhəridir. Abad, havası, suyu təmiz olan məkandır. Sumqayıtın bir qüruru da onun Dənizkənarı bulvarıdır.

Azərbaycanda həyata keçirilən infrastruktur layihələri sırasında Sumqayıt Dənizkənarı bulvarının və şəhər çimərliyinin yaradılmasının öz yeri var. Xəzərin göy sularının çırpıldığı sahillərdə belə bir bulvarın salınması ölkəmizdə insanların sağlamlığına, istirahətinin xoş və mənalı keçməsinə göstərilən qayğının təzahürüdür. Bu kompleks, eyni zamanda Sumqayıtın simasının daha da gözəlləşdirilməsi baxımından əhəmiyyətlidir.

Sumqayıt bulvarının ümumi sahəsi 106 hektardır, o, 4,2 kilometr məsafə boyu uzanır. Bulvarın ərazisi dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə yerləşir. Ərazi boyu 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı salınıb, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon ədəd gül və çiçək əkilib.

Bulvar kompleksindəki yeniliklərdən biri də avtomat suvarma sistemidir. Bu da yaşıllıq zolaqlarının qorunmasında əvəzsiz rol oynayır. Həmçinin 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib. 1500 ədəd müxtəlif ölçülü işıq dirəkləri və digər işıqlandırma sistemləri quraşdırılıb. Sakinlərin rahat istirahəti üçün 600-dən artıq oturacaq qoyulub. Bulvarın ərazisində müxtəlif yerlərdə 50 kölgəlik yaradılıb, 5 ədəd rəngli fontan inşa edilib. Burada velosipedçilər üçün xüsusi hərəkət zolağı və piyada yolu da salınıb. 4,2 kilometr yola asfalt döşənib, 30 hektar əraziyə daş döşənib. Ərazidə Bayraq Meydanı tikilib, sahildə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanənin tikintisi aparılır.

Bulvarda kiçikölçülü gəzinti avtobusları üçün avtomobil yolu salınıb. Bununla yanaşı, 4 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, mağazalar və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb.

Sumqayıt bulvarını fərqləndirən cəhətlərdən biri də onun çimərliyə birbaşa çıxışının olmasıdır. Xəzərin sahilindəki bu kompleks şəhərin simasının daha da gözəlləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir.

Dəniz sahilində yerləşdiyi üçün Sumqayıt da küləkli şəhərdir. Buna baxmayaraq, sumqayıtlılar təkcə isti yay günlərində deyil, digər fəsillərdə də buralara gəzintiyə çıxırlar. Hətta yağışlı, qarlı günlərdə də bulvarda yüzlərlə insana rast gəlmək mümkündür.

Sumqayıt sakinlərinin yaxın keçmişdə gəzmək, istirahət etmək üçün Bakı parklarına gəldiyi də yaddan çıxmayıb. İndi onlar artıq uzağa getməli olmurlar. Təxmini hesablamalara görə, ötən bir il ərzində Sumqayıt bulvarına 100 mindən çox insan gəlib və burada istirahət edib.

Cəmi bir neçə ildə Sumqayıt bulvarının gözəlliyindən dünyanın müxtəlif yerlərində də xəbər tutublar. Məsələn, ona ötən il “Global Trade Leaders” klubunun “Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı” (İnternational Europe Award for Quality) verilib. Mükafatı təsisatın baş katibi Rikardo Lopes qurumun Parisin “Meridien Etoile” hotelində keçirilən forumunda Sumqayıt nümayəndə heyətinə təqdim edib. Tədbirdə vurğulanıb ki, Sumqayıt bulvarı Azərbaycanda gedən quruculuq işlərinin bariz nümunəsidir.

Sumqayıt bulvarının gələcəyi daha gözəl olacaq. Belə ki, onun ərazisi şimala doğru bir kilometr uzadılır. Həmin ərazidə təmir işləri nəticəsində 40 min kvadratmetr gəzinti zolağı, 16 metr enində yol və yaşıllıq zolağı salınacaq. Bu yol şəhərin Səməd Vurğun küçəsinə birləşdiriləcək. Bir sözlə, 106 hektar ərazisi olan bulvar daha da genişləncək. Yeni uşaq-əyləncə mərkəzlərinin, fəvvarənin, müxtəlif attraksionların və digər obyektlərin quraşdırılması nəzərdə tutulub.

Yenidənqurma işləri sürətlə davam etdirilir. Yeri gəlmişkən qeyd edək ki, kompleksdə 500-dən çox yeni iş yeri açılıb.

Bulvar ərazisinin ikinci hissəsi bu ilin noyabr ayında, Sumqayıtın 70 illik yubileyi ərəfəsində əhalinin istifadəsinə veriləcək.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı keçirilən açıq heykəltəraşlıq müsabiqəsi başa çatıb

Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondunun Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı keçirdiyi açıq heykəltəraşlıq müsabiqəsi başa çatıb. Münsiflər heyətinin qərarı yaxın günlərdə ictimaiyyətə açıqlanacaq.







Landşaft memarlığı, bağça-park və şəhər heykəltəraşlığı sahələrində işləyən peşəkar heykəltəraşların qatıldığı müsabiqəyə ümumilikdə 26 layihə təqdim edilib. Ötən müddət ərzində təqdim olunan ərizə və eskizlər (maketlər) Heydər Əliyev Mərkəzində, eləcə də müsabiqənin elektron poçt ünvanında qəbul olunub.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Heydər Əliyev Mərkəzinin nümayəndəsi Zafiq Xəlilov deyib. Onun sözlərinə görə, müsabiqədə tanınmışlarla yanaşı, gənc rəssam-heykəltəraşlar və əcnəbi müəllif də iştirak edir. Müsabiqədə iştirak edənlər arasında Azərbaycanın məşhur heykəltəraşları - Xalq rəssamları Xanlar Əhmədov, Natiq Əliyev, Ömər Eldarov, Səlhab Məmmədov, Əməkdar rəssam Azad Əliyev, həmçinin Cəlil Qaryağdı da var. Azərbaycandan kənarda yaşayan tanınmış heykəltəraş Rahib Həsənov da müsabiqəyə layihə təqdim edib.

Müsabiqəyə Azərbaycanın bölgələrindən də (Gəncə şəhəri və Saatlı rayonu) heykəltəraşlar qoşulublar. “İctimaiyyətdə böyük maraq yaratdığına görə peşəkarlarla yanaşı, həvəskarlar da müsabiqəyə qatılıblar. Belə ki, ixtisasca hüquqşünas olan, həvəskar heykəltəraş İlkin Məmmədov layihə təqdim edənlər arasındadır.

Təqdim olunan eskizlərdə Hacı Zeynalabdin Tağıyevin faytonu, buxara papağı, ənənəvi libası, təsbehi, əsası, orden və medalları, bənnaçılıqdan başlayaraq tikinti ustası və təşkilatçısı kimi formalaşması, onu milyonçuya çevirən neft buruqları, təhsilə qayğısı əsas elementlər kimi göstərilir.

Təşkilat komitəsi verilmiş ərizə və eskizlər arasından bir qalib müəyyənləşdirəcək. Müsabiqə iştirakçılarının seçimi mövzuya uyğunluq, müəllif mülahizəsinin və icraedilmə səviyyəsinin peşəkarlığı, təqdim edilmiş kompozisiyanın materialının emal texnologiyasına uyğunluğu kimi meyarlar üzrə həyata keçirilir. Heykəlin ucaldılması müəllifin və ya onun müvəkkili olan şəxsin bilavasitə müşahidəsi altında, müsabiqənin təşkilatçısı tərəfindən seçilmiş yerdə həyata keçiriləcək.

Hacı Zeynalabdin Tağıyevin heykəlinin “İçərişəhər” metrostansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılması nəzərdə tutulur.

Qeyd edək ki, müsabiqəyə ərizə və eskizlər bu ilin aprelin 25-dən iyunun 30-dək qəbul olunurdu. Müsabiqəyə olan maraq, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov və bir sıra heykəltəraşların müraciətləri nəzərə alınaraq müsabiqə avqustun 31-dək uzadılmışdı.

# Yalan ayaq tutar, amma yeriməz

## Antiazərbaycançı şəbəkə indi də Azərbaycan tarixini saxtalaşdırmağa çalışır

*Əvvəli 1-ci səh.*

AXCP sədrinin bu yalanları onu deməyə əsas verir ki, bu gün aqressiv müxalifət düşərgəsində dünyada və ölkə daxilində gedən siyasi proseslərə hələ də “eksperiment” kimi yanaşan, imkanları ilə iddiaları tərs mütənasiblik təşkil edən, real situasiyanı dəyərləndirə bilməyən, ciddilikdən uzaq olan insanlar hələ də yalan və böhtanlarından əl çəkməyiblər.

İddiaları ilə imkanları heç zaman uzlaşmayan ifrat dağıdıcı qüvvələrin birillik uğursuz hakimiyyət illərini xatırlamamaq olmur. Həmin ağır dönəmdə naşı siyasətçilərin yarıtmaz fəaliyyətləri nəticəsində Dağlıq Qarabağda uğursuzluqlara düçar olduq və ərazilərimizin bir hissəsini itirdik. Əli Kərimlinin də aparıcı şəxslərindən biri olduğu siyasi komandanın nə dövlət idarəçiliyi, nə də ordu quruculuğu ilə bağlı hər hansı təsəvvürü və anlayışı var idi.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov “Facebook” sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusunda Əli Kərimlinin gülünc iddiaları və məntiqsiz bəyanatlarına tutarlı arqumentlərlə cavab verərək onu dalana dirəyib.

Əli Həsənov vurğulayıb ki, hələ o illərin canlı şahidləri Azərbaycan əhalisinin demoqrafik balansında xüsusi çəkiyə malikdir və tarixi çox yaxşı xatırlayırlar. Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməmişdən əvvəl işğal edilib. Azərbaycanın işğal edilmiş sonuncu rayonu Zəngilan Ermənistan hərbi birləşmələri tərəfindən 1993-cü ilin oktyabrında zəbt olunmuşdu. Həmin vaxta qədər Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi. Heydər Əliyev 1993-cü ilin 15 iyununda xalqın dəvəti ilə Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin Sədri seçilmişdi. Həmin vaxt ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq legitim prezidentə, faktiki olaraq baş nazirə tabe idi. Parlamentin Sədri kimi Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi maneələr yaradırdılar.

Görəsən, AXCP sədrinin məhz xalqının bir nömrəli problemi olan Dağlıq Qarabağ məsələsi ətrafındakı sərgilədiyi oyunbazlıq nə üçündür? Axı bu xalq 1992-1993-cü illərdəki hərc-mərcliyi necə unuda bilər?!

Əli Həsənov da statusunda bir daha bu məsələyə toxunaraq vurğulayır ki, həmin dövrdə AXC-Müsavat hakimiyyəti ölkəni bərbad vəziyyətə salmışdı və bu, orduda daha acınacaqlı hal almışdı: “Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər”.

Məhz bu proseslər Dağlıq Qarabağla birgə ətraf yeddi rayonun da zəbt olunmasına rəvac verdi. Həmin zaman Parlamentin Sədri olan Ulu Öndər hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşını ala bilərdi?

Ona görə də bütün bu deyilənlər onu deməyə əsas verir ki, Əli Kərimli indi də tarixi saxtalaşdırmaq istəyir və ağ yalanları ilə kimlərisə inandırmağa çalışır. Amma yenə də yanılır. Bəlkə də bu, gündəmdə qalmağın yeni ssenarisidir. Axı ətrafındakı insanların da yanında hörməti-izzəti qalmayan AXCP sədri xarici havadarlarından qrantı başqa cür necə ala bilər?..

AXCP sədri dahi liderin Azərbaycanın uğuru, nicatı üçün etdiklərini çox gözəl bilir. Özü də təkcə Əli Kərimli deyil, bütün dünya azərbaycanlıları bilir ki, Heydər Əliyev bu ölkəni etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan, AXC-Müsavat tandeminin səriştəsiz idarəçiliyi, xəyanət səviyyəli səhlənkarlığı ucbatından məhv olmaqdan xilas edib Azərbaycanı uçurumdan qurtarıb.

Ölkəni bu duruma salanlar sırasında olan Əli Kərimlinin elə buna görə də gülünc və əsassız ittihamlar səsləndirməyə haqqı belə çatmır.

Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi AXCP sədrinə bunu xatırladaraq onun xislətini qiymətləndirib: “Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloger kimi maraq doğurursunuz...”.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# “Hərbiyyə-101” hərbi vətənpərvərlik düşərgəsinə start verilir

Könüllülərin çoxsaylı müraciətlərini nəzərə alaraq Bakının azad olunmasının 101-ci illiyinə həsr edilmiş “Hərbiyyə-101” hərbi vətənpərvərlik düşərgəsinə start verilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 5-dən 10-dək Beyləqan hərbi birliyində təşkil olunacaq düşərgə “ASAN xidmət”, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və “ASAN Könüllüləri” Təşkilatının birgə təşəbbüsü ilə gerçəkləşəcək.




Hərbi simulyasiya formatında həyata keçiriləcək bu layihə çərçivəsində iştirakçılar müxtəlif peşəkar hərbi təlimlərə cəlb olunacaq, taktiki, qarovul, atəş, topoqrafiya, komandir və digər hərbi hazırlıqlarda iştirak edəcəklər. Eyni zamanda müxtəlif tarixi-mədəni ərazilərə ekskursiyalar təşkil olunacaq.

“Hərbiyyə” gənc nəslin hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi istiqamətində təşkil olunan sayca dördüncü düşərgədir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Məzəm kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Novruzlu, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistan yeni etirazlarla çalxalanır

*Əvvəli 1-ci səh.*

Məhkəmə iclasının sentyabrın 3-nə qədər təxirə salınması qərara alınmışdı. Həmin gün onun vəkilləri məhkəməyə müdafiə etdikləri şəxsin hüquqlarının pozulması ilə əlaqədar bir neçə müraciət təqdim ediblər. Söhbət sabiq prezidentə tətbiq olunmuş həbs qətimkan tədbirinin dəyişdirilməsi və cinayət işinin qaldırılması ilə bağlı hüquqi əsasların olmamasından gedir. Etirazçıların arasında həbsdə olan dövlət başçısının oğlu Levon Koçaryan da var.



Robert Koçaryanın tərəfdarlarından biri olan Hayk Alumyan jurnalistlərlə söhbətində bildirib ki, Konstitusiya Məhkəməsi onların dəlillərini, bütün şərhləri qəbul edərsə, Robert Koçaryan dərhal sərbəst buraxılacaq və cinayət təqibi dayandırılacaq.

Bu fonda Paşinyana yaxın şəxslərin Koçaryana qarşı ittihamlarının artması da müşahidə olunur. 1999-cu ildə Ermənistanın baş naziri olmuş Aram Sarkisyan bu xüsusda maraqlı fikirlər səsləndirib. Koçaryanı ittiham edən bu şəxs bildirib: “Hər kəsin nə qədər biliyə sahib olması onun nə qədər qabiliyyətli olmasını müəyyən edir. Oxumağı sevməyən, iqtisadiyyatda heç bir təcrübəsi olmayan Koçaryan ölkənin əmlakını vəhşicəsinə talan edib”.

O, Koçaryanın 1999-cu il Ermənistan parlamentinin güllələbaran edilməsi ilə bağlı yazdığı “Həyat və azadlıq” kitabını da tənqid edib. Sarkisyan Koçaryanın parlament sədri Karen Dəmirçiyanın öldürülməsi ilə yadda qalan hadisəni təhrif etdiyini bildirib və onu bu cinayətə görə ittiham edib: “Həmin dönəmdə siz hökumətin bütün üzvlərinə nifrət edirdiniz. Ən yaxın dostlarınıza belə... Təkcə Serj Sarkisyana güvənirdiniz. Çünki siz qorxurdunuz”.

Aram Sarkisyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Karen Dəmirçiyanın rolundan da danışıb və Koçaryana bununla bağlı suallar ünvanlayıb: “Niyə Dəmirçiyanla Qarabağ münaqişəsinin həll edilməsi məsələsi o vaxt müzakirə edildi? Niyə bundan sonra parlamentin güllələbaran edilməsi ilə bağlı başlamış məhkəmə prosesini sürətləndirib başa çatdırdınız?”

Xatırladaq ki, 1999-cu ildə Ermənistan parlamentində terror aktı törədilib. Oktyabrın 27-də baş verən silahlı basqın zamanı Ermənistanın baş naziri Vazgen Sarkisyan, parlamentin sədri Karen Dəmirçiyan, eləcə də bir neçə deputat öldürülüb. Bütün bunlar fonunda isə Paşinyanın hərbi xuntanı tam sıradan çıxarmaq üçün həm də güc yoluna əl atması da təbii sayılır.

Ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda müşahidə olunan hallardan biri də yenidən çoxsaylı etiraz aksiyalarının başlanmasıdır. Maraqlıdır ki, mövcud hakimiyyətin yarıtmaz siyasətinə etiraz olaraq təhsil işçiləri, tələbələr də qoşulublar. Belə ki, bu günlərdə İqtisad Universitetinin tələbələri auditoriyalara girməkdən imtina edərək etiraz aksiyalarına başlayıblar. Universitetin qarşısına toplaşan tələbələr təhsildə mövcud olan rüşvətə və korrupsiyaya etirazlarını bildiriblər. Tələbələrin aksiyasına universitetin müəllimləri də qoşulublar. Etirazçılar ali təhsil ocağında baş verən neqativ halların tez bir zamanda aradan qaldırılmasını tələb ediblər.

Aksiya iştirakçıları universitet binasından hökumət evinə doğru yürüş ediblər. Narazı kütlə universitetin rektoru Ruben Arembekyanın Nikol Paşinyanın göstərişi ilə istefasına da etiraz edib. Ali məktəbin müəllim kollektivi təhsil naziri Areik Artunyana ünvanlandığı məktubda bildirib ki, yeni rektor əvəzi Tiana Kalakenyanın elmi işlərində plagiatlıq aşkar olunub. Bundan başqa, tələbələr universitetə xeyli vəsait ödədikləri üçün keyfiyyətli təhsil verilməsini tələb ediblər.

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı heç də sakit günlərin gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Rəsmi Kabil ABŞ-la “Taliban” arasında saziş layihəsindən narahatdır

Əfqanıstan hökuməti ABŞ-la “Taliban” radikal hərəkatının razılaşdırdığı sazişin doğuracağı nəticələrdən narahatdır. Bu bəyanatla Əfqanıstan Prezidentinin nümayəndəsi Sədiq Səddiqi çıxış etmişdir.

Səddiqi qeyd etmişdir ki, hökumət ölkədə davamlı sülhü təmin edən və müharibəyə son qoyan hər hansı irəliləyişi dəstəkləyir, amma hökumətin əsas narahatlığı ABŞ-la taliblər arasında sazişlə əlaqədardır. O vurğulamışdır ki, sazişlə bağlı əsas risklərin qarşısının necə alınması məsələsi ciddi narahatlıq doğurur: “Hökumət narahatdır və ona görə də arzuolunmaz riskləri təhlil etmək və təhlükəli nəticələrin ortaya çıxmasına mane olmaq üçün sənədlə bağlı izahat verilməsini tələb edir”.



Xəbər verildiyi kimi, ABŞ və “Taliban” Amerika qoşunlarının ölkədən çıxarılması müddəti barədə saziş layihəsini razılaşdırmışdır. Layihədə “Taliban” Əfqanıstan ərazisindən ABŞ-a və ya digər ölkələrə hücum üçün istifadə etməmək təminatı verir. Əfqanıstan hökuməti danışıqlarda iştirak etmirdi, hərçənd ABŞ israr edirdi ki, rəsmi Kabil yekun tənzimləmədə iştirak etməlidir.

## Pentaqon Meksika ilə sərhəddə divar inşasına 3,6 milyard dollar ayırdı



ABŞ Müdafiə Nazirliyi Meksika ilə sərhəddə divarın 280 kilometrlik yeni sahəsinin inşasına 3,6 milyard dollar ayırmışdır. Bu barədə Pentaqonun nümayəndəsi Conatan Hoffman məlumat vermişdir.

Divar inşasına pul ABŞ ərazisində və xaricdə 127 hərbi obyektin tikintisi və təmiri üçün nəzərdə tutulmuş büdcədən götürüləcək. Həmin obyektlərin inşası dondurulacaq. Bu, xaricdə xidmət edən hərbçilərin sayını azaltmağa imkan verəcək. İyulun axırlarında ABŞ Ali Məhkəməsi hökumətə Meksika ilə sərhəddə divar inşa etmək üçün Pentaqonun büdcəsindən istifadə etməyə icazə vermişdir. Prezident Donald Tramp məhkəmənin qərarını sərhədlərin təhlükəsizliyi və hüququn aliliyi məsələsində böyük qələbə kimi qiymətləndirmişdir.

## Britaniyalı mühafizəkarlar 21 deputatı partiyadan xaric etdilər



Böyük Britaniya Mühafizəkarlar Partiyası parlamentin İcmalar Palatasında Boris Conson hökumətinə qarşı çıxdığına görə 21 deputatı sıralarından xaric etmişdir. Bu barədə yerli KİV xəbər verir.

Partiyadan çıxarılmış deputatlar arasında sabiq maliyyə nazirləri Ken Klark və Filip Həmmond, keçmiş ədliyyə naziri Devid Houk, Uinston Çörçillin nəvəsi - ser Nikolas Soms da var.

Hakim Mühafizəkarlar Partiyasının üzvlərindən biri Liberal-Demokrat Partiyaya keçdikdən sonra parlamentdə deputat əksəriyyətindən məhrum olmuşdur. Hadisə hökumətin sazişsiz Avropa İttifaqından çıxmağı qadağan edən qətnamə layihəsi səsverməyə qoyulduqdan qabaq baş vermişdir.

## Rusiyanın Suriyadakı hərbi bazası hücuma məruz qaldı



Silahlılar Rusiyanın Suriyadakı “Hmeymim” aviabazasına hücum etmişlər. Bu barədə “əl-Məsdər News” internet portalı xəbər verir.

Partlayışlar sahilyanı Cəblə şəhərində eşidilmişdir. Rusiya hava hücumundan müdafiə vasitələri hücumu dəf etmişdir. Silahlıların aviabaza istiqamətində buraxdığı raketlər, həmçinin pilotsuz uçuş aparatları məhv edilmişdir.

Rusiya Müdafiə Nazirliyi məlumat vermişdir ki, şimal-qərb istiqamətindən yaxınlaşan iki pilotsuz təyyarə məhv edilmişdir. Zərərçəkən və maddi zərər yoxdur, aviabaza adi rejimdə işləyir.

## İran Avropaya ultimatum verdi



Rəsmi Tehran, Fransanın təklif etdiyi kimi, İrana 15 milyard dollar məbləğində kredit verilsə, 2015-ci ildə imzalanmış nüvə sazişinin icrasına qayıtmağa hazırdır. Bu barədə “Röyter” agentliyi xəbər verir. İran xarici işlər nazirinin müavini Abbas Ərakçı bildirmişdir ki, islam respublikasına yaxın dörd ay ərzində 15 milyard dollarlıq kredit xətti açılmasa, Tehran nüvə sazişinin şərtlərinə əməl etməyəcək. O əlavə etmişdir ki, sözügedən kredit neft satışı müqabilində əvvəlcədən ödəniş olacaq, əks təqdirdə, nüvə sazişində yer almış öhdəliklərin ixtisarı prosesi davam edəcək.

## Yaxın vaxtlarda “Uğurlu Rəqəm 14” yeni ani lotereyasının satışına start veriləcək

AZƏRLOTEREYA




**“Azərlotereya” ASC tərəfindən keçirilən “Uğurlu rəqəm 14” ani lotereyasının oyun qaydaları:** Lotereya biletlərinin üzərində yerləşən üstüörtülü **“uğurlu rəqəm”** və **“oyun xətləri”nin** qoruyucu səthini pozmaq lazımdır. “Uğurlu rəqəm” zonasında yazılan rəqəm “oyun xətləri”nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği udmuş olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Örtülü zonalarda olan rəqəmlərin hər hansı başqa kombinasiyası biletin uduşsuz olduğunu göstərir.

| Uduşların məbləği (manatla) | 10 faiz dərəcə ilə vergi tutulduqdan sonra ödənilən məbləğ (manatla) | Uduşlu biletlərin sayı (ədədlə) | Uduşların ümumi məbləği (manatla) |
|---|---|---|---|
| 1 | 1,00 | 2 500 000 | 2 500 000 |
| 2 | 2,00 | 550 000 | 1 100 000 |
| 3 | 3,00 | 200 000 | 600 000 |
| 5 | 5,00 | 50 000 | 250 000 |
| 10 | 10,00 | 20 000 | 200 000 |
| 21 | 20,00 | 10 000 | 210 000 |
| 50 | 46,10 | 5 000 | 250 000 |
| 100 | 91,10 | 1 000 | 100 000 |
| 1 000 | 901,10 | 100 | 100 000 |
| 5 000 | 4 501,10 | 26 | 130 000 |
| 10 000 | 9 001,10 | 16 | 160 000 |
| 20 000 | 18 001.10 | 10 | 200 000 |
| 50 000 | 45 001,10 | 4 | 200 000 |

Satışa buraxılmış lotereya biletlərinin ümumi sayı: 10 000 000 (on milyon) ədəddir. “Uğurlu rəqəm 14” ani lotereyasında uduşlu lotereya biletlərinin “Azərlotereya” ASC tərəfindən qəbulu lotereya başlandığı tarixdən başlayır və 3 (üç) il ərzində davam edir. Uduş “Azərlotereya” ASC tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilir (ödənilir). Lotereyanın başa çatdığı tarix: 01.09.2022-ci il. 2 000 (iki min) manatadək olan uduşlar lotereya biletlərinin satış məntəqələri tərəfindən, 2 000 (iki min) manat və daha böyük məbləğlər Bakı şəhəri, Təbriz küçəsi 79 ünvanında “Azərlotereya” ASC tərəfindən ödənilir. “Azərlotereya” ASC-nin internet ünvanı www.azerlotereya.com. Lotereya biletinin üz tərəfində əks olunan "Pozmaq olmaz" yazısı pozulduğu halda bilet etibarsız sayılır və həmin bilet üzrə uduş ödənilmir.
Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən lotereyaların keçirilməsindən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti və uduş məbləğinin 10 (on) manat hissəsi çıxılmaqla qalan məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur. “Uğurlu rəqəm 14” ani lotereyası 29.07.2019-cu il tarixində AR MBNP tərəfindən qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi 165.

18+

POZ və QAZAN!

“Azərlotereya” ASC-də lotereya həvəskarları arasında xüsusi rəğbət qazanmış yeni “Uğurlu Rəqəm 14” ani lotereyasının layihəsi işlənib hazırlanmışdır.

Yaxın vaxtlarda qeyd olunan yeni ani lotereyanın satışına start veriləcəkdir. “Uğurlu Rəqəm 14” ani lotereyasının çap sayı 10 000 000 (on milyon) ədəd nəzərdə tutulmuşdur ki, bunlardan da 3 336 156 ədəd uduşlu lotereya biletləri olmaqla, 4 ədəd 50 000 manat, 10 ədəd 20 000 manat, 16 ədəd 10 000 manat, 26 ədəd 5 000 manat, 100 ədəd 1 000 manat müxtəlif pul mükafatları lotereya həvəskarlarının yolunu gözləyir.

“Uğurlu Rəqəm 14” ani lotereyasının oyun qaydaları aşağıdakı kimidir:

Lotereya biletinin üzərində yerləşən üstüörtülü “uğurlu rəqəm” və “oyun xətləri”nin qoruyucu səthini pozmaq lazımdır. “Uğurlu rəqəm” zonasında yazılan rəqəm “oyun xətləri”nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği udmuş olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Örtülü zonalarda olan rəqəmlərin hər hansı başqa kombinasiyası biletin uduşsuz olduğunu göstərir.

Azərbaycan Respublikasının ərazisində “Azərlotereya” ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilərlər.

Bildiririk ki, “Azərlotereya” ASC-də keçiriləcək hər bir yeni lotereya barəsində tərəfimizdən mütəmadi olaraq lotereya həvəskarlarına məlumat veriləcəkdir.

*Sizin “Azərlotereya”*

## “Bakı Metropoliteni” QSC yeni tipli elektrik lövhələrinin və avadanlıqlarının satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. “Bakı Metropoliteni” QSC üçün yeni tipli elektrik lövhələrinin və avadanlıqlarının satın alınması**
**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08 oktyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 oktyabr 2019-cu il saat 16:45-də** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi “Sumqayıt Kimya Sənaye Parkı” MMC təşviqat materialları və çap məhsullarının satın alınması ilə əlaqədar *açıq tender elan edir*

*Təkrar*

Tender 1 LOT üzrə keçirilir:

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən təşviqat materialları və çap məhsullarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, “Demirchi Tower” ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

**İştirak haqqı: 300 manat.**

**H/h: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: “PAŞA Bank” ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/h: AZ82NABZ01350100000000071944**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 sentyabr 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **04 oktyabr 2019-cu il saat 18:00-dək** “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, “Demirchi Tower” ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 oktyabr 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Xocalı prospekti 37, “Demirchi Tower” ünvanında yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə Tender komissiyasının 20 avqust 2019-cu il tarixli qərarına əsasən “Halal-P” MMC qalib seçilmişdir.

Qalib şirkətlə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları

**CAHANGİR RUFULLA OĞLU XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Qulu Kərimova anası

**ƏZƏMƏT KƏRİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Neftmaşınqayırma Zavodunun direktoru Eldar Vəliyev akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri Vüqar Behbudova atası

**ŞƏFA BEHBUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Neftmaşınqayırma Zavodunun direktoru Eldar Vəliyev Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova əzizi

**FƏRİD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9013
Sifariş 2897
Qiyməti 40 qəpik